# Dilin daima Allahı zikr etməklə yaş qalsın

Abdullah bin Busr (Allah ondan razı olsun) rəvayət edir ki, bir kişi Peyğəmbərin (sallallahu aleyhi va səlləm) yanına gəlib belə dedi: “Ey Allahın elçisi! İslam ayinlərinin çoxluğu bizə ağır gəldi. Bütün xeyirli əməlləri əhatə edən bir qapı varmı, biz ondan möhkəm yapışaq?”. Peyğəmbər (sallallahu aleyhi vasəlləm) ona belə dedi: "Dilin daima Allahı zikr etməklə yaş qalsın". Bir başqa rəvayətdə isə Muaz ibn Cəbəl (Allah ondan razı olsun) belə demişdir: Peyğəmbər (səllallahu əleyhi və səlləm) ilə son görüşümdə ona söylədiyim söz belə olmuşdu: "Əməllərin hansı daha xeyirli və Allaha daha yaxın olanıdır?". Peyğəmbər (səllallahu əleyhi və səlləm) belə buyurdu: "Dilin İzzət və Cəlal sahibi Allahın zikri ilə yaş olarkən ölməyindir."
[Səhih] [رواه أحمد والترمذي وابن ماجه وابن حبان]

Bir kişi Peyğəmbərə (sallallahu aleyhi və səlləm) nafilə ibadətlərinin çoxluğundan və bədəninin zəyifliyinə görə də aciz qalaraq onları yerinə yetirə bilməməsindən şikayət etdi. Sonra kişi, Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) ona asan, lakin böyük savab gətirən bir əməl göstərməsini xahiş etdi ki, ona bağlı qalıb, ondan yapışsın. Beləliklə, Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona, dilinin Uca Allahı hər zaman və hər halda təsbih və həmd edərək, istiğfar, dua və s. bu kimi zikrlər etməklə təravətli və hərəkətli qalmasını tövsiyə etdi.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee